# Azərbaycan döyüş meydanında Ermənistanı diz çökdürür

## Sülhə nail olmaq istəyənlər İlham Əliyevin şərtlərini mütləq nəzərə almalıdırlar

(Əvvəli 1-ci səhifədə).

Beləliklə, azad olunmuş şəhər və kəndlərimizin sırasına daha 18-i əlavə olundu. Sentyabrın 27-dən indiyədək 173 yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, Hadrut, Mincivan və Ağbənd qəsəbələri işğaldan azad edilib. 166 kənd isə Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Tərtər və Qubadlı rayonlarını əhatə edir.

Prezident İlham Əliyev xalqa müraciətində bir daha bəyan etdi ki, Azərbaycan beynəlxalq hüquqdan kənar heç bir addım atmır, Ermənistanın torpaqlarına girmir: "Ermənistan torpağına girmirik, beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarımızı bərpa edirik. Əgər BMT Təhlükəsizlik Şurasının daimi üzvləri, Minsk qrupunun həmsədrləri bunu edə bilməyiblərsə, çəkilsinlər kənara, mane olmasınlar. Ermənistandan fərqli olaraq biz heç kimdən kömək istəmirik. Mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar. Sabah bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs necə olacaq bizim münasibətlərimiz? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bunu bir fikirləşsinlər. Azərbaycan indi o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoya bilər".

Azərbaycan bu gün öz haqqını ləyaqətlə təmin edir, özünün şərəfli tarixini yazır. Dövlət başçısının qeyd etdiyi kimi, Ermənistan döyüş meydanında artıq bizim qabağımızda diz çöküb. Azərbaycanın uğurları fonunda isə ayrı-ayrı dövlətlərin ermənipərəstliyi daha aydın görünür. Lakin artıq vəziyyət dəyişib, status-kvo dəyişib, təmas xətti yoxdur. Azərbaycan Ordusunun qarşısında Ermənistanın duruş gətirməsi mümkün deyil. Ona görə sülhə nail olmaq istəyənlər Azərbaycanın şərtlərini mütləq nəzərə almalıdırlar.

**"Azərbaycan"**

# Azərbaycan tolerant, dünyəvi ölkədir və gələcəkdə də belə olmağa davam edəcək

24 oktyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə vermiş və həmin müsahibədə sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi hücuma keçdiyini bildirmişdir. Bu hərbi hücumun ilk saatlarında mülki şəxslər və hərbi qulluqçular arasında qurbanlar olmuşdur. Bu, son üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü hərbi təxribat idi. Onlar Ermənistanla dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdilər. Cənub Qaz Dəhlizi təkcə Azərbaycanın deyil, həm də Avropanın enerji təhlükəsizliyi layihəsidir. Ermənistanın məqsədlərindən biri bu boru kəməri üzərində nəzarəti ələ keçirmək və Azərbaycanı, Avropa istehlakçılarını şantaj etmək idi. Bu hücumu etməklə Ermənistanın güddüyü siyasi məqsədlərə gəlincə, bunlar status-kvonun dəyişməz olaraq qalmasından, bu eskalasiyaya görə günahı Azərbaycanın üstünə atmaqdan, danışıqları tamamilə pozmaqdan, üçüncü ölkələri münaqişəyə cəlb etməkdən və münaqişəni beynəlmiləlləşdirməkdən ibarət idi. Lakin uğurlu əks hücum nəticəsində Ermənistan döyüş meydanında məğlub olur və onlar qaçmaq məcburiyyətində qalır. Bu, Azərbaycan Ordusunun yüksək səviyyəli bacarığını və potensialını nümayiş etdirir. Hər gün işğaldan azad olmuş kənd və şəhərlər Azərbaycan ordusunu və xalqını daha da ruhlandırır. Artıq İranla 130 km-lik beynəlxalq sərhəd tam şəkildə Azərbaycan ordusunun nəzarətindədir. Buna görə Araz çayının o biri tərəfində olan qardaşlarımız üçün artıq heç bir narahatlıq olmayacaq. Rusiya, Fransa və Amerika Birləşmiş Ştatları ATƏT-in Minsk qrupu həmsədrləri kimi vasitəçiliyə davam edir və 28 ildir tərəflərə həll yolunu tapmağa kömək etməyə çalışırlar. Bu üç ölkə, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Onlar Azərbaycanın istinad etdiyi erməni qoşunlarının torpaqlarımızdan çıxarılmasını tələb edən qətnamələri qəbul etmiş, lakin işğal olunmuş əraziləri boşaltmaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmək üçün Ermənistana kifayət qədər beynəlxalq təzyiq göstərməyiblər. Son münaqişə baş verəndən sonra oktyabrın 10-u və 17-si Moskvada hər iki ölkənin Xarici İşlər nazirləri tərəfindən humanitar atəşkəs elan olunmuşdur. Lakin onlar atəşkəs müqaviləsindən bir neçə saat sonra, oktyabrın 10-da atəşkəsi kobud şəkildə pozaraq gecə vaxtı Gəncə şəhərinə ballistik raket atıblar. Oktyabrın 17-də növbəti atəşkəs qüvvəyə minəndən cəmi 2 dəqiqə sonra Ermənistan tərəfindən yenidən atəşkəs pozuldu, mülki şəxslər qətlə yetirildi. Ermənistanın hərbi hücumlarından sonra Azərbaycan özünü müdafiə etməli və ədaləti güc yolu ilə qorumalı idi. Ermənistan Fransa, Rusiya və ABŞ tərəfindən işlənib hazırlanmış və Azərbaycanın sadiq olduğu əsas prinsiplərə açıq şəkildə əməl etsə münaqişə dayanar və iki ölkə danışıqlar masasına qayıdar. Ermənistan hökuməti başa düşməlidir ki, status-kvo artıq mövcud deyil, təmas xətti artıq mövcud deyil. Azərbaycan ordusu yeni reallıq yaratdı və onlar bunu nəzərə almalıdırlar. Buna baxmayaraq Ermənistan hökuməti öz terror əməllərindən əl çəkmir və dünya mediasına müxtəlif cür dezinformasiyalar yayaraq bu münaqişədə Azərbaycanı günahkar çıxarmaq niyyətindədir. Bu cür dezinformasiyalara cavab olaraq Prezident İlham Əliyev bildirmişdir: "Türkiyə əsla münaqişəyə cəlb edilməyib. Türkiyənin F-16 qırıcı təyyarələri ona görə Azərbaycandadır ki, toqquşmalar başlamazdan öncə onlar birgə hərbi təlimdə iştirak edirdilər və onlar yerdədilər, onlar səmada deyillər. Ermənistanın Su-25 təyyarəsi dağa çırpılmışdır və onlar bunu guya Türkiyə F-16 qırıcı təyyarəsi tərəfindən vurulduğu kimi qələmə verməyə çalışırdılar. Ümumiyyətlə Azərbaycan tərəfində heç bir əcnəbi döyüşçü yoxdur. Bu, dezinformasiyadır. Bu, müəyyən ölkələrin bəzi rəsmiləri tərəfindən yayılmışdır. Lakin bu vaxtadək, toqquşmalar başlayandan sonra iyirmi gündən çox bir müddətdə nə Fransadan, nə də Rusiyadan heç bir dəlil təqdim olunmamışdır. Heç bir sübut yoxdur, heç bir dəlil yoxdur. Digər bir məsələ ondan ibarətdir ki, Azərbaycana əcnəbilər lazım deyil, çünki Azərbaycanın 100 min nəfərdən ibarət nizami ordusu var, müasir avadanlığı var, 30 ildir ki, işğaldan əziyyət çəkən motivasiyalı insanları var. Hətta tam səfərbərlik belə elan edilməyib. Döyüşdə əlavə insan lazım olsa, daha artıq qüvvə çağırılar" Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hücumun ilk saatlarından Türkiyə Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana və beynəlxalq hüququn norma və prinsiplərinə dəstək verirlər. Lakin bu sadəcə qardaş Türkiyənin Azərbaycan xalqına verdiyi mənəvi dəstəkdən ibarətdir. Türkiyə ilə münasibətlərin böyük tarixi və daha da parlaq gələcəyi var. Türkiyə əsla iki ölkə arasında baş verən hərbi münaqişəyə cəlb edilməyib. Azərbaycan döyüş meydanındakı uğurları müasir silahlarla, müasir avadanlıqlarla və ordusu ilə qazanmışdır. Lakin siyasi həll yolu ilə bu prosesə cəlb edilmək üçün Türkiyənin Cənubi Qafqazın hər üç ölkəsi - Azərbaycan, Gürcüstan və Ermənistanla sərhədi olan dünyada yeganə ölkə kimi legitim hüququ var. Ermənistanla müharibə bitdikdən və siyasi nizamlama həyata keçirildikdən sonra əminəm ki, regionda sabitlik və əmin amanlığın təmin olunmasında Türkiyənin rolu çox mühüm olacaqdır. Azərbaycan dünyəvi ölkədir. Konstitusiyaya əsasən din dövlətdən ayrıdır. Azərbaycanda yaşayan bütün digər millətlərin dinlərinə hörmət edilir. Azərbaycanda dini harmoniyanın ən yaxşı göstəricisi Roma Katolik Kilsəsinin başçısı, Zati-müqəddəsləri Papa Fransiskin sözləri ola bilər. Bir neçə il bundan əvvəl Bakıda olanda o, ictimaiyyət qarşısında bəyanatla çıxış edərək Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqdakı rolunu yüksək qiymətləndirib. Azərbaycanda müxtəlif dinlərin bütün nümayəndələri, o cümlədən ermənilər sülh və harmoniya şəraitində yaşayırlar. Bakının mərkəzində bərpa olunmuş və hökumət tərəfindən qorunan erməni kilsəsi var. Azərbaycan tolerant, dünyəvi ölkədir və gələcəkdə də belə olmağa davam edəcək. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağı insanların ləyaqət və sülh içində, azərbaycanlı və erməni icmalarının yanaşı yaşaması şəraitində özünün çiçəklənən, təhlükəsiz ərazisi kimi görür. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**«Qəbələ»**

# Reydlər müntəzəm olaraq davam etdirilir

Rayonda xüsusi karantin rejimi qaydalarının təmin olunması ilə bağlı mobil qruplar əhalinin sıx olduğu məkanlarda, ictimai-iaşə və ticarət obyektlərində olmuş, xüsusi karantin rejimi ilə bağlı maarifləndirmə işləri apararaq Operativ Qərargahın qərarlarına uyğun digər tədbirlər həyata keçirmişlər. Reydlər zamanı sosial məsafənin saxlanılmasının və tibbi maskadan istifadənin vacibliyi bir daha vətəndaşların diqqətinə çatdırılıb. Gün ərzində ümumilikdə 69 ticarət obyektinə və 72 digər obyektə baxış keçirilmişdir. Karantin qaydalarını pozduğu üçün 4 nəfər rayon sakini və 1 nəfər bərbər salonunun işçisi İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə hər biri 100 manat məbləğində cərimə olunmuşlar. 2 dünyasını dəyişmiş mərhumun ailələrinə yas mərasimlərinin keçirilməməsi ilə bağlı xəbərdarlıq edilib. Mobil qruplar tərəfindən əhali arasında reydlər maarifləndirmə tədbirləri mütəmadi olaraq davam etdirilir.



# Azərbaycan Ordusu BMT-nin iki qətnaməsini tam yerinə yetirdi

Azərbaycan Ordusu sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Qarabağda başladığı əks-hücum əməliyyatı ilə həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını həyata keçirir.

Yenisabah.az xatırladır ki, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair 4 qətnaməsi var. Bunlar 822, 853, 874 və 884 saylı qətnamələrdir.

30 aprel 1993-cü il tarxidə qəbul olunan 822 saylı qətnamədə bölgədəki hərbi əməliyyatlara son vermək, erməni qoşunlarının Kəlbəcərdən və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi tələb edilir.

Qətnamə qəbul edildikdən sonra Ermənistan silahlı qüvvələri Ağdamı işğal edib. Bu fakt 853 saylı qətnamənin qəbulunu şərtləndirib. 29 iyul 1993-cü ildə qəbul olunan bu qətnamədə də bölgədəki hərbi əməliyyatlara son vermək, erməni hərbi birləşmələrinin Ağdamdan və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi və əvvəlki sənədə əməl olunması tələb edilir.

Lakin Ermənistan bu qətnamələrə əməl etməyərək işğalçılıq siyasətini davam etdirib. Füzuli, Cəbrayıl və Qubadlı rayonları işğal edilib. BMT Təhlükəsizlik Şurası bununla bağlı növbəti qətnamə qəbul edib. 14 oktyabr 1993-cü il tarxidə qəbul olunan 874 saylı qətnamədə atəşkəs imzalanması, hərbi əməliyyatları dayandıraraq erməni qoşunlarının son dövrlərdə işğal etdiyi Füzuli (23 avqust 1993), Cəbrayıl (23 avqust 1993), Qubadlı (30 sentyabr) və digər ərazilərdən geri çəkilməsi tələb edilir. Qətnamədə həmçinin əvvəlki 822 və 853 saylı qətnamələrə əməl edilməsi tələbi də öz əksini tapıb.

Ermənistan BMT Təhlükəsizlik Şurasının bu qətnaməsini də görməzdən gələrək Zəngilan və Horadiz şəhərini işğal edib. İrəvanın işğalçılıq siyasətindən əl çəkməsi üçün növbəti qətnamə qəbul olunub. 12 noyabr 1993-cü il tarxidə qəbul olunan 884 saylı qətnamədə əvvəlki sənədlərdə olduğu kimi işğal faktı pislənilib və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxması tələb edilib.

Azərbaycan Ordusunun əkshücum əməliyyatı nəticəsində artıq Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərləri işğaldan azad edilib. Bununla da, Azərbaycan hərbçiləri BMT Təhlükəsizlik Şurasının 874 və 884 saylı qətnamələrinin icrasını təmin edib. Kəlbəcər, Ağdam və digər ərazilər də işğaldan azad edildikdən sonra 822 və 853 saylı qətnamələr də icra edilmiş sayılacaq.

Beləliklə, dünyanın 30 ilə icrasını təmin edə bilmədiyi qətnamələrdən ikisi Azərbaycan Ordusunun sayəsində yerinə yetirilib.

**«Qəbələ»**